Extractive
Industries
Transprency
Initiative

# MHŞT QIYMƏTLƏNDIRMƏ TƏLIMATI

**MHŞT-nin təsdiqetmə üzrə təlimatı**
Beynəlxalq inkişaf şöbəsi tərəfindən
nəşr edilib

© Müəllif hüquqları 2006

Bu nəşr (loqotip daxil olmaqla) istənilən formatda və ya vasitələrlə dəqiqlik nəzərə alınmaqla və yanlış məzmunda olmamaq şərti ilə yenidən nəşr edilə bilər. Materiallar nəşrin başlığı və mənbəyi qeyd olunmaqla müəllif hüquqları kimi qəbul olunmalıdır.

MHŞT-nin Beynəlxalq Katibliyi
tərəfindən çap edilib, 2008.

Çap üçün dizayn Alison Binlendin.

Mətbəə əlavələri və dizaynın müəllif
hüquqları MHŞT-yə məxsusdur.

Norveçdə çap olunub, 2008

**EITI-nin Beynəlxalq Katibliyi**
**aşağıdakı ünvanda yerləşir:**
EITI International Secretariat
Ruseløkkveien 26
0251 Oslo
Norway
Tel: +47 22242105
Website: www.eitransparency.org
E-mail:
secretariat@eitransparency.org

Extractive
Industries
Transprency
Initiative

# MHŞT QIYMƏTLƏNDIRMƏ TƏLIMATI

# M Ü N D Ə R İ C A T


**1. Giriş** 7
Təsdiqetmənin məqsədi 7
Təsdiqetmənin icmalı 7

**2. Təsdiqetmə prosesinin əsas sənədləri** 9
Ölkə üzrə İş planı 9
MHŞT-nin təsdiqetmə sxemi və göstəricilərin qiymətləndirilməsi üsulları 10
Şirkət üçün formalar 11

**3. Təsdiqetmə hesabatı** 12

**4. Təsdiqetmədən sonra** 13

**5. Təsdiqetmə strukturu** 14

**6. Göstərici qiymətləndirmə üsulları** 16

**7. Şirkət üçün formalar** 24

**8. İcmal göstəricisi** 28

# 1. GİRİŞ

**Təsdiqetmənin məqsədi**

Təsdiqetmənin məqsədləri aşağıdakılardır:

- MHŞT-ni həyata keçirən, lakin tam həyata keçirməmiş ölkələr üçün (bax – namizəd ölkələr) təsdiqetmə MHŞT-nin həyata keçirmə prosesində irəliləyişi qiymətləndirməlidir.
- MHŞT-ni tam həyata keçirmiş ölkələr üçün (bax – uyğun olan ölkələr) təsdiqetmə ölkənin MHŞT-nin Prinsip və meyarlarına uyğun olub-olmamasını tam qiymətləndirməsini təmin etməlidir.

Yuxarıda qeyd olunan kimi ölkələrin iki kateqoriyası razılaşdırılmışdır:

**Namizəd** ölkələr MHŞT-ni həyata keçirməyi öhdəliyinə götürən və Təsdiqetmə sxeminin imzalanma mərhələsində bütün dörd göstəricilərə cavab verən ölkələrdir (aşağıda qeyd olunur). Bu öhdəliklərə aşağıdakılar daxildir: MHŞT-nin həyata keçirilməsi üzrə öhdəliklər; ictimaiyyət və özəl sektorla işlərin görülməsi üzrə öhdəliklər; həyata keçirmə üzrə məsul şəxsin təyinolunması; və marağı olan tərəflərlə razılaşdırılmış İş planının hazırlanması.

**Uyğun** ölkələr MHŞT-ni tamamilə həyata keçirmiş ölkələrdir. Bu ölkələr MHŞT üzrə hesabatların dərcolunması daxil olmaqla Təsdiqetmə sxemində əks olunmuş bütün meyarlara cavab verirlər.

**Təsdiqetmənin icmalı**

Şəkil 1-də təsdiqetmə prosesi əks olunur. Təsdiqetmə üzrə razılaşdırılmış addımlarla bağlı ətraflı məlumat bu təlimatda göstərilir.

Birinci addım beynəlxalq iştirakçılar qrupu tərəfindən Təsdiqləndirən şəxsin təyin edilməsidir.

Seçilmiş Təsdiqləndirən şəxs üç əsas sənədlərdən istifadə etməklə qrupun işinə yardım edəcək.

Bu sənədlər aşağıdakılardır:

- Ölkə üzrə İş planı
- Təsdiqetmə sxemi və göstəricilərin qiymətləndirilməsinin üsulları və
- Şirkət üçün formalar

Bu sənədlərdən istifadə edərək Təsdiqləndirən şəxs beynəlxalq iştirakçılar qrupu və şirkətlər tərəfindən acıqlandırılmış məlumatları uyğunlaşdıran təşkilatlar, hökumət nümayəndələri və digər marağı olan tərəflərlə (beynəlxalq iştirakçılar qrupuna daxil olmayan şirkətlər və mülkü cəmiyyət) görüş keçirəcək.

Bu məlumatları istifadə edərək Təsdiqləndirən şəxs aşağıdakı məsələləri əks edən hesabatı hazırlayacaq:

- Ölkə üzrə İş planının icrası haqqında qısa hesabat.
- Təsdiqetmə sxemində əks olunan göstəricilərin haqqında qısa hesabat.
- Təsdiqetmə sxeminə dair hazırlanmış hesabat.
- Şirkətin MHŞT-nin həyata keçirməsinə dair qısa hesabat.
- Yoxlanılmış Şirkət formaları.
- **MHŞT-nin həyata keçirilməsinin ümumi qiymətləndirilməsi: ölkə namizəd, uyğun ölkədir və ya heç bir əhəmiyyətli nəticə yoxdur?**

Bu hesabat ilk öncə beynəlxalq iştirakçılar qrupu, hökumət nümayəndələri və MHŞT-nin Şurasına təqdim olunur. Bu qruplar Təsdiqetmə hesabatı ilə razı olduqları halda, hesabat nəşr olunur və xülasə və təkliflərə uyğun tədbirlər görülür.

Təsdiqetmə prosesi ilə bağlı razılıq olmadığı halda bu məsələ ilk öncə yerlərdə yalnız ciddi mübahisələrin olduğu halda yardım üçün çağırılan MHŞT-nin Şurası ilə həll olunur.

Təsdiqetmə maliyyə auditi deyildir. Təsdiqləndirən şəxsin işi ölkə və şirkətlər tərəfindən öhdəliklərin yerinə yetirilməsinin yoxlanılmasıdır. Bu məsələ maliyyə auditini əhatə etmir.

**Şəkil 1: Təsdiqetmə prosesinin şəbəkəsi**



# 2. TƏSDİQETMƏ PROSESİNİN ƏSAS SƏNƏDLƏRİ

**Ölkə üzrə İş planı**

Təsdiqetməni həyata keçirən **ölkə üzrə İş planı** təsdiqetmə prosesinin mühüm komponentidir. İş planı ölkə “imzalama” mərhələsindən “hazırlama” mərhələsinə keçməzdən əvvəl hazırlanmalı və nəşr edilməlidir. MHŞT-nin meyarları İş planının davamlı maliyyələşdirilməsini və aşağıdakıların daxiledilməsini tələb edir:

- ölçülə bilən məqsədlər
- həyata keçirilmə üçün vaxt cədvəli
- və potensial imkanların tələblərinin qiymətləndirilməsi.

İş planında həmçinin hökumətin MHŞT-nin təsdiqetmə prosesində beynəlxalq iştirakçıların, xüsusilə mülki cəmiyyətin iştirakını necə təmin edəcəyi əks olunur.

İş planı ölkə “namizəd” olan mərhələ zamanı təsdiqetmə üçün vaxt cədvəlini müəyyən etməlidir. Bu plan ölkənin tələblərini əks etdirməli, lakin hər iki ildən ən azı bir dəfə həyata keçirilməlidir. MHŞT-nin Şurası təsdiqetmənin daha tez-tez keçirilməsinin namizəd ölkələrə MHŞT-nın çətinliklər olmadan həyata keçirilməsinə yardım edib etməyəcəyini nəzərə ala bilər. İş planında həmçinin hökumət təsdiqetmə üçün ödənişləri necə həyata keçirəcəyini dəqiq işləyib hazırlamalıdır.

Təsdiqləndirən şəxs bu məqsədlər və vaxt cədvəlinə uyğun olaraq MHŞT-nin həyata keçirilməsində irəliləyişinin qiymətləndirilməsində və ölkənin müəyyən olunmuş potensial imkanlarının tələblərinə uyğun keçirilən tədbirlərin qiymətləndirilməsinə yardım edəcək.

Ölkənin təsdiqetmə prosesində əsas məsələ həyata keçirmə üçün vaxt cədvəlinə riayət olunmasıdır. Əgər vaxt cədvəlinə riayət olunmayıbsa, Təsdiqləndirən şəxs əsas marağı olan tərəflər və digərlərinin müşahidələrinə əsasən gecikdirmələrin əsaslı və ya əsassız olmasını müəyyənləşdirməlidir.

Təsdiqləndirən şəxsin həyata keçirmədə irəliləyişə dair xülasələri hesabatda əks olunmalıdır.

**MHŞT-nın Təsdiqetmə sxemi və göstəricilərin qiymətləndirilmə üsulları**

Təsdiqetmə prosesinin ən vacib məsələsi **MHŞT-nin Təsdiqetmə sxemidir.** Bu sxemdə Təsdiqləndirən şəxs tərəfindən qiymətləndirmə prosesində istifadə edilən 20 göstərici əks olunur. Bunlardan 18-i qeydlər vərəqəsi vasitəsilə cavab verilən və ya cavab verilməyən göstəricilər kimi qiymətləndiriləcək. Qalan iki göstərici isə (şirkətin təsdiqedilməsi və icmalı) Təsdiqləndirən şəxsin qısa hesabatında qiymətləndirilməlidir. Bu hesabata Sxem və Göstəricilərin Qiymətləndirilməsi Üsulları (aşağıda göstərilir), həmçinin Şəbəkənin göstəricilərinə uyğun həyata keçirmənin irəliləyişinə dair hesabat da daxil edilməlidir.

Təsdiqetmə sxeminin göstəricilərinin təxminən yarısı obyektivdir və Təsdiqləndirən şəxsdən bu göstəricilərə cavab verib və ya verilməməsini müəyyən edilməsini tələb edirlər. Qalan yarısı isə daha az obyektivdir və aşağıdakılara aiddir:

a. **Göstərici 4 – Ölkə üzrə İş planı.** Yuxarıda qeyd olunduğu kimi ölkə üzrə İş planı təsdiqetmə prosesinin əsas elementidir. Buna görə də ölkə üzrə İş planında gözlənilən komponentləri qeyd etmək məqsədilə 4-cü göstəricidə birgə işlənən Göstəricinin Qiymətləndirmə Üsulu var.

b. **Hazırlanma mərhələsi.** Təsdiqləndirən şəxs tərəfindən MHŞT-nin həyata keçirilməsində irəliləyişnin qiymətləndirilməsi müxtəlif ölkələrdə həyata keçirməyə yanaşmaların mütləq nəzərə alınmasını daxil edir. Buna görə hər göstəricinin birgə işlənən Göstərinicin Qiymtələndirmə Üsulu var. Bu üsul Təsdiqləndirən şəxsə göstəricinin necə qiymətləndirilməsi üçün təlimatı təmin edir.

c. **Şirkətin təsdiq edilməsi.** Bu ölkənin təsdiqetmə prosesinin hissəsidir, lakin şirkətin fəaliyyətinə aid olan xüsusi suallara cavabların verilməsini tələb edir. Şirkətlər üçün Göstəricilərin Qiymətləndirmə Üsulu hər şirkət tərəfindən doldurulmalı olan özünün qiymətləndirimə formasını təmin edir. Şirkətin təsdiqetmə Şəbəkəsində qeydlərin aparılması üçün bölmə yoxdur, buna görə də bir çox şirkətlərin hesabatlarını "cavab verir" və ya "cavab vermir" baxımından ümumiləşdirmək çətin olacaq. Lakin Təsdiqləndirən şəxs şirkətlərin cavablarının nəzərdən keçirməli və bunu hesabata daxil etməli, həmçinin Təsdiqetmə hesabatına daxil etmək üçün şirkətlərin cavablarına cədvələ salınmalıdır.

d. **Yayım.** Təsdiqetmə hesabatını ictimaiyyətə təqdim etmək üçün xüsusi tədbirlərin qiymətləndirilməsi.

e. **İcmal.** İcmal üçün keyfiyyətli məqsədlərin qoyulması.

Yuxarıda qeyd olunduğu kimi **Göstəricilərin Qiymətləndirmə Üsulları** xüsusi göstəricilər üçün hazırlanmışdır. GQÜ-nın məqsədi göstəricilər daha çətin yaxud subyektiv olduğu halda Təsdiqləndirən şəxs üçün əlavə təlimatları təmin etməkdir. Bəzi GQÜ-da Təsdiqləndirən şəxs qeydə alınmış hər məlumatın aydın olduğunu təmin etməlidir. Digər GQÜ üçün isə üsullar ölkə tətbiq edə bilən müxtəlif yanaşmaları və məlumatların izahedici şəkildə qeydə alınmasını müəyyən edir. Bu GQÜ üçün göstəricinin müsbət qiymətləndirməsi üçün hər qeydə alınmış məlumatı nəzərdən keçirmək mütləq deyil.

**Şirkət üçün formalar**

Şirkət tərəfindən MHŞT-nin həyata keçirilməsi həmçinin təsdiq edilməlidir. Bu ilkin olaraq ölkənin təsdiq edilməsinin bir hissəsi kimi həyata keçirilməlidir. Buna görə də ölkənin təsdiqedilmə prosesi şirkətlər tərəfindən doldurulmalı və Təsdiqləndirən şəxsə qaytarılan Şirkətlərin özünün qiymətləndirmə formalarını da daxil etməlidir. Təsdiqləndirən şəxs lazım olduqda əlavə məlumatların alınması üçün şirkətlərə müraciət etmək səlahiyyətinə malikdir.

Doldurulmuş formalar şirkətin veb-saytında yerləşdirilməlidir və təsdiqetmə hesabatlarında şirkətin özünüqiymətləndirmə formalarını ümumiləşdirən cədvəl əks olunmalıdır.

Şirkət özünüqiymətləndirmə formasının doldura bilməsə, Təsdiqləndirən şəxs bunu Təsdiqetmə hesabatında əks edəcək və şirkət haqqında ictimaiyyətə təqdim olunan resurslarda yerləşdirilən hər hansı bir müvafiq məlumatları hesabata daxil edəcək. Şirkətə bu məlumatları yoxlamağa imkan veriləcək.

MHŞT-də iştirak edən şirkətlər öz veb-saytlarında təşəbbüslə razılıq barədə məlumatları dərc etməlidirlər.

MHŞT-nin dəstəklənməsinə görə beynəlxalq öhdəliklər götürən şirkətlər şirkətin beynəlxalq səviyyəli özünüqiymətləndirmə formasını doldurmalıdırlar. Bu forma birbaşa MHŞT-nin Katibliyinə göndərilməli və MHŞT-nin veb-saytında yerləşdirilməlidir.

# 3. TƏSDİQETMƏ HESABATI

Yuxarıda qeyd olunduğu kimi Təsdiqetmə hesabatda aşağıdakılar əks olunmalıdır:

- ölkə üzrə İş planına dair irəliləyiş üzrə qısa hesabatı.
- Təsdiqetmə sxeminin göstəricilərinə dair qısa irəliləyiş hesabatı.
- doldurulmuş Təsdiqetmə sxemi.
- şirkət formalarına dair qısa hesabat.
- Ümumiləşdirilmiş şirkət formaları.
- **MHŞT-nin həyata keçirilməsinin ümumi qiymətləndirilməsi: ölkə namizəd, uyğun gələn ölkədir və ya heç bir əhəmiyyətli nəticələr yoxdur?**

Təsdiqetmədə heç bir əhəmiyyətli nəticələr olmadığı halda və MHŞT-nin Prinsip və Meyarlarına uyğun olaraq həyata keçirmək istiqamətində kiçik niyyətlər olduğu halda Təsdiqləndirən şəxsin Şura tərəfindən ölkənin namizəd ölkələr siyahısından çıxarılmasının dəqiq qiymətləndirilməsini təminedilməsi olduqca vacibdir. Hər hansı bir tövsiyələrin edilməsindən əvvəl Təsdiqləndirən şəxs ölkənin hər hansı bir belə məsələlərlə bağlı tədbirlərin görülməsi üçün vaxtının olduğunu müəyyənləşdirməlidir. Belə bir tövsiyələr yalnız eyni nəticələri olan iki təsdiqetmə tədbirlərindən sonra qəbul oluna bilər. Lakin digər hallarda bu belə bir nəticələrə təkcə bir təsdiqetmədən sonra da gəlmək olar.

Hesabatda həmçinin qazanılmış təcrübə, iştirakçılar tərəfindən bildirilən hər hansı bir fikirlər və MHŞT-nin gələcək həyata keçirilməsi üçün tövsiyələr qeyd olunmalıdır.

Hesabat beynəlxalq iştirakçılar qrupu, hökumət və MHŞT-nin Şurası tərəfindən razılaşdırıldıqdan sonra nəşr olunacaq və ingilis və yerli dildə geniş yayılacaq.

# 4. TƏSDİQETMƏDƏN SONRA

Hökumət, beynəlxalq iştirakçılar qrupu və ya MHŞT-nin Şurası tərəfindən Təsdiqetmə hesabatına dair razılıq olmadığı halda bu məsələ ilk öncə bu qruplarla iş görən Təsdiqləndirən şəxslə həll olunmalıdır. Əgər bu məsələ həllini tapmasa, Təsdiqetmə üzrə məsul şəxs Hesabatda müvafiq dəyişikliklər etməlidir. Razılığa gəlməmə Təsdiqləndirən şəxsin hesabatında qeyd olunmalıdır.

Təsdiqetmə prosesi ilə bağlı ciddi uyğunsuzluqlar bu məsələni həll etməyə çalışan MHŞT-nin Şurası və Sədrinə təqdim olunmalıdır. Şura və Sədr əhəmiyyətsiz, xoşagəlməz və ya əsassız hesab etdikləri şikayətləri rədd etmək səlahiyyətinə malikdirlər.

# 5. TƏSDİQETMƏ STRUKTURU

## MHŞT Meyarları

MHŞT-nin həyata keçirilməsi aşağıdakı meyarlarına uyğun olmalıdır.

1 **YAYILMA:** Hökumətə verilən bütün maddi neft, qaz və dağ-mədən sənayesinə aid olan ödəmələr ("ödəmələr") və hökumətin aldığı neft, qaz və dağ-mədən sənayesinə aid olan şirkətlərdən bütün maddi gəlirlər ("gəlirlər") barədə məlumatlar ictimaiyyətə hamı üçün acıq, tam və anlaşıqlı şəkildə təqdim olunmalıdır.

2 **AUDİT:** Əgər həmin audit hələ mövcud deyilsə, ödəmələr və gəlirlər etibarlı, müstəqil audit ilə beynəlxalq audit standartlarına uyğun olaraq yoxlanılmalıdır.

3 **MÜQAYİSƏ: Ödəmələr və gəlirlər** etibarlı, müstəqil inzibatçı tərəfindən, beynəlxalq audit standartlarını tətbiq etmək şərti ilə müqayisə edilməli və inzibatçının həmin müqayisə barədə rəyi, o cümlədən bütün ziddiyyətlər barədə məlumatlar (əgər tapılarsa), açıqlanmalıdır.

4 **ƏHATƏ:** Bu yanaşma bütün şirkətlərə, o cümlədən hökumətə məxsus olan şirkətlərə tətbiq olunur.

5 **MÜLKİ CƏMİYYƏT:** Mülki cəmiyyət həmin prosesinin işlənməsində, onun monitorinqində və qiymətləndirilməsində fəal iştirak edir və ictimai müzakirələri zənginləşdirir.

6 **İŞ PLANI:** Yuxarıdakıları əhatə edən, ictimaiyyətə açıqlanan və maliyyə cəhətdən davamlı olan iş planı hökumət tərəfindən beynəlxalq maliyyə təşkilatların köməyi ilə işlənib hazırlanır. Həmin plan ölçülə bilən göstəriciləri, tətbiqetmə cədvəlini və mümkün olan məhdudiyyətlərin qiymətləndirilməsini əhatə etməlidir.

## MHŞT-nin həyata keçirilməsi

### QEYDİYYAT

**1.** Hökumət MHŞT-nin həyata keçirilməsini öz qarşısına məqsəd qoyduğunu barədə birmənalı şəkildə bəyanat vermişdirmi? ☐

**2.** Hökumət MHŞT-nin həyata keçirilməsi işində mülki cəmiyyət və şirkətlər ilə işləmək üçün üzərinə öhdəlik götürmüşdürmü? ☐

**3.** Hökumət MHŞT-nin həyata keçirilməsinə rəhbərlik etmək üçün rəsmi baş rəhbər nümayəndəni təyin etmişdirmi? ☐

**4.** Bütün xərcləri nəzərdə tutan, o cümlədən ölçülə bilən göstəriciləri, tətbiqetmə cədvəlini və məhdudiyyətlərin qiymətləndirilməsini (hök., özəl sektor və mülki cəmiyyət) əks etdirən iş planı nəşr olunub yayılmışdırmı?

**Göstərici Qiymətləndirmə Üsullarına (GQÜ) bax** ☐

### HAZIRLIQ İŞİ

**5.** Hökumət MHŞT-nin həyata keçirilməsinə nəzarət etmək üçün marağı olan tərəflər qrupunu təyin etmişdirmi?
**GQÜ-na bax** ☐

**6.** Həmin prosesdə mülki cəmiyyət iştirak edirmi?

**GQÜ-na bax** ☐

**7.** Həmin prosesdə şirkətlər iştirak edirmi?

**GQÜ-na bax** ☐

**8.** Hökumət MHŞT-nin həyata keçirilməsinin qarşısında duran bütün maneələri aradan qaldırmışdırmı?

**GQÜ-na bax** ☐

**9.** Hesabat şablonları artıq razılaşdırılmışdırmı?

**GQÜ-na bax** ☐

## AÇIQLAMA

## YAYILMA

**10.** Marağı olan tərəflər komitəsi rəqəmləri müqayisə etmək üçün təşkilatın təyin edilməsinə razıdırmı?

**GQÜ-na bax**

☐

**11.** Hökumət bütün şirkətlərin tərəfindən hesabatların verilməsini təmin etmişdirmi?

**GQÜ-na bax**

☐

**12.** Hökumət şirkətlər tərəfindən təqdim edilən hesabatların beynəlxalq standartlara uyğun şəkildə audit edilən hesabatlara əsaslanmasını təmin etmişdirmi?

**GQÜ-na bax**

☐

**13.** Hökumət rəsmi dövlət hesabatların beynəlxalq standartlara uyğun şəkildə audit edilən hesabatlara əsaslanmasını təmin etmişdirmi?

**GQÜ-na bax**

☐

**14.** Şirkətlər tərəfindən hökumətə verilən bütün maddi neft, qaz və dağ-mədən sənayesinə aid olan ödəmələr ("ödəmələr") barədə məlumatlar rəqəmləri müqayisə edən and MHŞT hesabatını hazırlayan podratçı təşkilata açıqlanmışdırmı?

☐

**15.** Hökumətin aldığı bütün maddi neft, qaz və dağ-mədən sənayesinə aid olan gəlirlər ("gəlirlər") barədə məlumatlar rəqəmləri müqayisə edən və MHŞT hesabatını hazırlayan podratçı təşkilata açıqlanmışdırmı?

☐

**16.** Marağı olan tərəflər qrupu hökumət və şirkətlər tərəfindən təqdim edilən rəqəmləri müqayisə edən podratçı təşkilatın işini qənaətbəxş şəkildə yerinə yetirildiyini qəbul edirmi?

☐

**17.** MHŞT hesabatı ziddiyyətləri təyin edib, müvafiq addımların atılması barədə tövsiyələr verirmi?

☐

Neft, qaz və mədən sənayesində işləyən şirkətlər MHŞT-nin həyata keçirilməsini necə dəstəkləyir?

**GQÜ-na bax**

**18.** MHŞT hesabatı ictimaiyyətə:
– hamı üçün açıq,
– tam və
– anlaşıqlı
şəkildə təqdim olunmuşdurmu?

**GQÜ-na bax**

☐

Aldığı dərslərə müvafiq hərəkət etmək, ziddiyyətləri araşdırmaq və MHŞT-nin həyata keçirilməsinin davamlığını təmin etmək üçün hansı addımlar atılmışdır?

**GQÜ-na bax**

# 6. GÖSTƏRİCİ QİYMƏTLƏNDİRMƏ ÜSULLARI

**Göstərici Qiymətləndirmə Üsulu**

**Struktur göstəricisi**

4

**GÖSTƏRİCİ: Bütün xərcləri nəzərdə tutan, ölçülə bilən göstəriciləri, tətbiqetmə cədvəlini və məhdudiyyətlərin qiymətləndirilməsini (hök., özəl sektor və mülki cəmiyyət) əhatə edən iş planı nəşr olunub yayılmışdırmı?**

**Məqsəd: Ölkənin İş Planı ölkənin qiymətləndirməsi prosesinin əsasını təşkil edir**. Altıncı MHŞT Meyarı iş planının işlənib hazırlanmasını, MHŞT-də marağı olan ən vacib tərəflərlə razılaşdırılması və ictimaiyyətə açıqlanmasının tələb edir.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs iş planının marağı olan ən vacib tərəflərlə razılaşdırıldığını və həmin planda aşağıdakıların əhatə olunduğunun sübutunu görməlidir:

- Ölçülə bilən göstəricilər.
- Tətbiqetmə cədvəli.
- Mümkün olan məhdudiyyətlərin qiymətləndirilməsini.
- Hökumət MHŞT-nin marağı olan çoxsaylı tərəflərdən ibarət olduğunu necə təmin edir, xüsusilə mülki cəmiyyətin iştirakı cəhətdən.
- Ölkənin "Namizəd" mərhələdə olduğu zaman qiymətləndirmə cədvəli. Bu ölkənin tələbatını əks etdirməli və ən azı iki ildə bir dəfə hazırlanmalıdır.
- İş planında hökumət tərəfindən qiymətləndirmə prosesinin haqqının necə ödənəcəyi açıqlanmalıdır.

Qiymətləndirən şəxs MHŞT-nin həyata keçirilməsinin gedişini bu göstərici və cədvəllər ilə müqayisə edib qiymətləndirməlidir və ölkənin müəyyən olunmuş məhdudiyyətlərə dair hansı tədbirlərin gördüyünü müəyyənləşdirməlidir.

Ölkənin qiymətləndirmə prosesinin ən vacib hissəsi tətbiqetmə cədvəlinin riayət olub-olunmamasıdır. Əgər cədvələ riayət edilmirsə, qiymətləndirən şəxs – marağı olan ən vacib tərəflərdən və başqalardan alınmış məlumatlara əsasən – cədvələ riayət edilməməsinin ağlabatan olub-olmadığını müəyyənləşdirməlidir. Əgər bu səbəb ağlabatan sayılmırsa, qiymətləndirən şəxs ölkəni namizəd ölkələrin siyahısından silinməsi barədə tövsiyə verib-verməməsinə dair qərar qəbul etməlidir.

Göstərici Qiymətləndirmə Üsulu
## Struktur göstəricisi

5

**GÖSTƏRİCİ: Hökumət MHŞT-nin həyata keçirilməsinə nəzarət etmək üçün marağı olan tərəflər qrupunu təyin etmişdirmi?**

**Məqsəd:** MHŞT-nin bütün müvafiq marağı olan tərəflər (o cümlədən bunları daxil etməklə: özəl sektor, mülki cəmiyyət (o cümlədən müstəqil mülki cəmiyyət qrupları, misal üçün KİV və deputatlar) və aidiyyatı olan nazirliklər (o cümlədən, hökumətin rəsmi şəxsləri). Anlaşıqlı və ictimaiyyət üçün açıq olan texniki şərtlər an azı aşağıdakıları əhatə etməlidir: Ölkə İş Planının dəstəklənməsi; əgər lazımdırsa, onun üzərində edilən dəyişiklər; məlumatların şirkətlər tərəfindən müqayisə üçün təqdim edildiyi və ya hökumətin hələ beynəlxalq audit standartlarına uyğun olan məlumatlara əsaslanmaması halda auditorun audit keçirilməsi üçün təyin edilməsi; müqayisə aparan təşkilatın müəyyənləşdirilməsi və təsdiqetmə strukturunda göstərilən digər sahələr.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs marağı olan çoxsaylı tərəflər qrupunun formalaşması, onun müvafiq marağı olan tərəflərdən ibarət olduğu və onun texniki şərtlərin məqsədəuyğun olmasının sübutunu görməlidir.

Dəlillər aşağıdakıları əhatə etməlidir:

- Marağı olan tərəflərin qiymətləndirilməsi, əgər yerinə yetirilmişdirsə.
- Marağı olan çoxsaylı tərəflər qrupunda üzvlük barədə məlumatı:
  - Həmin qrupda iştirak etmək üçün dəvətnamə açıq və şəffaf şəraitdə verilmişdirmi?.
  - Marağı olan tərəflər lazımı dərəcədə təqdim olunublarmı? (bu o demək deyil ki, marağı olan tərəflər bərabər şəkildə təqdim olunmalıdır)?
  - Marağı olan tərəflər özlərini lazımı dərəcədə təqdim olunduğunu hesab edirlərmi?
  - Marağı olan tərəflər özləri komitənin hissəsi kimi – o cümlədən onların seçicilər qrupları və digər marağı olan tərəflər ilə olan əlaqələrdə – heç bir qeyri-düzgün təsir və ya təzyiq altında qalmadan işləməyə bacaran sayırlarmı?
  - Qrupun mülki cəmiyyətin nümayəndələri iş və siyasi cəhətdən və hökumətdən və özəl sektordan müstəqildirmi?
  - Qrupun üzvlərinin dəyişdirilməsi halda, hər-hansı təzyiq barədə ya da mövcud olan vəziyyəti dəyişmək niyyətində olmayan bir üzvü cəlb etmək üçün səy barədə məlumatlar olmuşdurmu?
  - Qrupun üzvləri öz vəzifələrini tam şəkildə yerinə yetirmək üçün lazım olan qabiliyyətinə malikdirlərmi?
- Texniki şərtlər komitəyə MHŞT-nin həyata keçirilməsində təsir göstərməyə imkan verirmi?
- Həmin texniki şərtlər az azı aşağıdakıları əhatə etməlidir: Ölkə İş Planının dəstəklənməsi; əgər lazımdırsa, onun üzərində edilən dəyişiklər; məlumatların şirkətlər tərəfindən müqayisə üçün təqdim edildiyi və ya hökumətin hələ beynəlxalq audit standartlarına uyğun olan məlumatlara əsaslanmaması halda auditorun audit keçirilməsi üçün təyin edilməsi; müqayisə aparan təşkilatın müəyyənləşdirilməsi və təsdiqetmə strukturunda göstərilən digər sahələr.
- Hökumətin yüksək vəzifəli nümayəndələri komitənin işində iştirak edirlərmi?

**Göstərici Qiymətləndirmə Üsulu**
## Struktur göstəricisi

# 6

**GÖSTƏRİCİ: Həmin prosesdə mülki cəmiyyət iştirak edirmi?**

**Məqsəd:** Bu göstərici 5-ci göstəricini möhkəmləndirir. MHŞT meyarları mülki cəmiyyətinin prosesin işlənib hazırlanması, monitorinq və qiymətləndirilməsində fəal iştirakını və ictimai müzakirələrdə mühüm rol oynamağını tələb edir. Bu məqsədə nail olmaq üçün, MHŞT mülki cəmiyyətinin geniş iştirakı ilə həyata keçirilməlidir. Bu məqsədə çatmaq üçün marağı olan çoxsaylı tərəflər qrupdan və ya həmin qrupa əlavə olunan tərəflərin köməyindən istifadə etmək olar.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumət və, əgər məqsədəuyğun sayılarsa, MHŞT-nin marağı olan çoxsaylı tərəflər qrupunun mülki cəmiyyətdən olan marağı olan tərəfləri MHŞT-nin həyata keçirilməsi prosesinə cəlb etmək üçün səy göstərdiyinin sübutunu görməlidir. Bu, aşağıdakı dəlilləri əhatə etməlidir:

- Marağı olan çoxsaylı tərəflər qrupunun öz işində mülki cəmiyyətin geniş dairələri əhatə etməsi, o cümlədən mülki cəmiyyətin qrupları və/və ya koalisiyaları ilə (misal üçün, yerli "Nə Ödəyini Elan Et" koalisiyası) media, veb-saytlar və məktublar vasitəsi ilə əlaqə saxlamağı, onlara hökumətin MHŞT-nin həyata keçirilməsi istiqamətində səy göstərməsi və həmin prosesdə şirkətlərin və mülki cəmiyyətin əsas rolu barədə məlumat verilməsi.
- Mülki cəmiyyətinin iştirakına maneə törədən məhdudiyyətlərin aradan qaldırılması üçün hökumət, mülki cəmiyyət və ya şirkətlər tərəfindən görülən tədbirlər.
- MHŞT-də iştirak edən mülki cəmiyyətin qrupları iş və siyasət cəhətdən hökumətdən və/və ya özəl sektordan müstəqil olmalıdır.
- MHŞT-də iştirak edən mülki cəmiyyətin qrupları MHŞT barədə öz fikirlərini heç bir təsir və ya təzyiq altında qalmadan ifadə edə bilməlidir.

**Göstərici Qiymətləndirmə Üsulu**
## Struktur göstəricisi

# 7

**GÖSTƏRİCİ: Həmin prosesdə şirkətlər iştirak edirmi?**

**Məqsəd:** Bu göstərici 5-ci göstəricini möhkəmləndirir. MHŞT meyarları mülki cəmiyyətinin prosesin işlənib hazırlanması, monitorinq və qiymətləndirilməsində fəal iştirakını və ictimai müzakirələrdə mühüm rol oynamağını tələb edir. Bu məqsədə nail olmaq üçün, MHŞT mülki cəmiyyətinin geniş iştirakı ilə həyata keçirilməlidir. Həmin məqsədə çatmaq üçün marağı olan çoxsaylı tərəflər qrupdan və ya həmin qrupa əlavə olunan tərəflərin köməyindən istifadə etmək olar.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumət və, əgər məqsədəuyğundursa, MHŞT-nin marağı olan çoxsaylı tərəflər qrupunun şirkətləri (neft, qaz və dağ-mədən sənayesinə aid olan) MHŞT-nin həyata keçirilməsi prosesinə cəlb etmək üçün səy göstərdiyinin sübutunu görməlidir. Bu, aşağıdakı dəlilləri əhatə etməlidir:

- Marağı olan çoxsaylı tərəflər qrupunun öz işində neft, qaz və dağ-mədən sənayesinə aid olan şirkətləri əhatə etməsi, onlarla o cümlədən media, veb-saytlar və məktublar vasitəsi ilə əlaqə saxlamağı və onlara hökumətin MHŞT-nin həyata keçirilməsi istiqamətində səy göstərməsi və həmin prosesdə şirkətlərin əsas rolu barədə məlumat verilməsi.
- Şirkətlərin iştirakına maneə törədən məhdudiyyətlərin aradan qaldırıması üçün hökumət, mülki cəmiyyət və ya şirkətlər tərəfindən görülən tədbirlər.

Göstərici Qiymətləndirmə Üsulu
**Struktur göstəricisi**

# 8

## GÖSTƏRİCİ: Hökumət MHŞT-nin həyata keçirilməsinin qarşısında duran bütün maneələri aradan qaldırmışdırmı?

**Məqsəd:** MHŞT-nin həyata keçirilməsinə qanuni, normativ və ya başqa maneələrin olduğu halda hökumət həmin maneələrinin aradan qaldırmalıdır. Adətən, maneələr dövlətin və şirkətlərin müqavilələrində olan məxfilik müddəalardan və hökumət idarələri arasında ziddiyyətli ödənişlərdən irəli gəlir.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumət tərəfindən bütün maneələrin aradan qaldırılmasının sübutunu görməlidir. Bu, maneələrin profilaktik qiymətləndirilməsi və ya həmin maneələrin əmələ gəlməsindən sonra onları aradan qaldırmaq məqsədi ilə görülən fəal tədbirlər ola bilər. Bu məsələyə vahid bir yanaşma yoxdur, çünki ölkələrdə mövcud olan və prosesin həyata keçirilməsinə təsir göstərə bilən qanunvericilik sistemləri və digər sazişlər fərqlənir, və bu məsələlərdə müxtəlif yanaşmalardan istifadə olunmalıdır.

Qiymətləndirən şəxs aşağıda göstərilən dəlilləri nəzərə almalıdır:

- Qanuni sistemin icmalı.
- Normativ sistemin icmalı.
- Qanuni və normativ sistemlərdə olan və MHŞT-nin həyata keçirilməsinə təsir göstərə bilən maneələr.
- Şəffaflığı təmin etmək məqsədi ilə təklif və ya qəbul olunmuş qanuni və ya normativ dəyişiklər.
- Hökumət və şirkətlər arasında imzalanan müqavilələrdə gəlirlər barədə məlumatların açıqlanmasına imkan verən məxfilikdən imtinaya aid olan müddəalar.
- Daha geniş şəffaflığı təmin etmək üçün şirkətlərlə bilavasitə əlaqələr.
- Şəffaflıq standartlarını və hökumətlə şirkətlər arasında qarşılıqlı münasibətləri müəyyənləşdirən qarşılıqlı anlayış memorandumu.

Göstərici Qiymətləndirmə Üsulu
**Struktur göstəricisi**

# 9

## GÖSTƏRİCİ: Hesabat şablonları artıq razılaşdırılmışdırmı?

**Məqsəd:** Hesabat şablonları açıqlama və yayılma və MHŞT-nin son hesabatının hazırlanması prosesi üçün zəruridir. Şablon hansı gəlir axınlarını şirkətlərin və hökumətin açıqlamalara daxil etməsinin müəyyənləşdirir. Şablonlar marağı olan çoxsaylı tərəflər qrupu tərəfindən razılaşdırılmalıdır.

MHŞT meyarları hökumətə verilən “bütün maddi neft, qaz və dağ-mədən sənayesinə aid olan ödənişlər” və hökumətin neft, qaz və dağ-mədən sənayesinə aid olan şirkətlərdən aldığı “bütün maddi gəlirlər” barədə məlumatların yayılmasını tələb edir. Beləliklə, MHŞT şablonları, marağı olan çoxsaylı tərəf qrupunun müqaviləsi şəkildə həmin maddi ödənişlərin və gəlirlərin mahiyyətini və “maddi” anlayışını müəyyənləşdirməlidir. Marağı olan çoxsaylı tərəf qrupunun həm də hesabatda əhatə edilən müddətləri müəyyənləşdirməlidir. Gəlir axını o halda maddi sayılır ki, həmin axının daxil edilməməsi və ya onun barədə səhv məlumat verilməsi MHŞT-nin son hesabatına maddi cəhətdə təsir göstərə bilər.

Aşağıda göstərilən gəlir axınlarının siyahıda göstərilməsi əksər hallarda zəruri kimi sayılır:

- Hökumətin hasilat payı.
- Hökumətə məxsus olan dövlət şirkətinin hasilat payı.
- Gəlir vergiləri.

- Royalti (mədən vergisi).
- Dividentlər.
- Bonuslar (misal üçün imza, kəşf, istehsalat bonusları).
- Lisenziyalı ödənişlər, kirayə ödənişləri, qeydiyyat haqqları və başqa lisenziyalara aid olan şərtlər və/və ya konsessiyalar.
- Gəlir nefti.
- Hökumətin aldığı digər əhəmiyyətli faydalar, marağı olan çoxsaylı tərəflər qrupu ilə razılaşmasına əsasən.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs marağı olan çoxsaylı tərəflər qrupu ilə şablonların işlənib hazırlanması zamanı müzakirələrin aparılması, daha geniş dairələrə öz fikirlərini bildirmək üçün şərait yaradılması və marağı olan çoxsaylı tərəflər qrupu son şablonları qəbul etdiyinin sübutunu görməlidir. Bu aşağıdakılarını əhatə edə bilər:

- Nümunə şablonların marağı olan çoxsaylı tərəflər qrupuna təqdim edilməsi.
- Marağı olan çoxsaylı tərəflər qrupunun şablonlar barədə müzakirələrin protokolu.
- Marağı olan tərəflərin daha geniş dairələri ilə (misal üçün şirkətlər ilə) şablonların işlənməsinə dair əlaqələr.
- Marağı olan tərəflərə müzakirə olunan məsələləri anlamağa imkan vermək məqsədi ilə görülən tədbirlər.
- Marağı olan çoxsaylı tərəflər qrupunun şablonlara, o cümlədən bütün gəlir axınlarının daxil etməsinə razılığı.

**Göstərici Qiymətləndirmə Üsulu**

## Struktur göstəricisi

# 10

**GÖSTƏRİCİ: Marağı olan tərəflər komitəsi rəqəmləri müqayisə etmək üçün təşkilatın təyin edilməsinə razıdırmı?**

**Məqsəd:** Hökumət və şirkətlər tərəfindən açıqlanan rəqəmləri qəbul edib müqayisə etmək və son MHŞT hesabatını hazırlamaq üçün ayrıca bir təşkilat təyin edilməlidir. Həmin təşkilat inzibatçı, müqayisə edən və ya auditor rolunda çıxış edə bilər. Həmin təşkilatın marağı olan qruplar tərəfindən etibarlı, inanılmağa layiq və texniki cəhətdən səriştəli təşkilat sayılmalıdır.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs marağı olan çoxsaylı tərəflərin qrupunun rəqəmləri müqayisə etmək üçün təyin edilmiş təşkilatını qəbul etdiyinin sübutunu görməlidir. Bu aşağıdakı dəlilləri əhatə edə bilər:

- Marağı olan çoxsaylı tərəflər qrupu tərəfindən razılaşdırılmış texniki şərtlər.
- MHŞT Katibliyi və İdarə Heyəti ilə potensial qiymətləndirici şəxsləri müəyyən etmək üçün yaradılmış şəffaf əlaqələr.
- Marağı olan çoxsaylı tərəflər qrupunun təşkilatın sonuncu seçimi ilə razılığı.

## Struktur göstəricisi

# 11

**GÖSTƏRİCİ:** Hökumət bütün şirkətlərin hesabat verdiyini təmin etmişdirmi?

**Məqsəd:** MHŞT meyarları bütün dövlət (hökumətə məxsus olan), özəl, xarici və yerli şirkətlərin hökumətə etdiyi ödəmələri barədə məlumatların razılaşdırılmış şablonlara uyğun olaraq açıqlanan rəqəmləri müqayisə edən təşkilata təqdim edilməsini tələb edir. Hökumət isə şirkətlər tərəfindən məlumatların təqdim edilməsini təmin etmək üçün bütün zəruri tədbirləri görməlidir. Burada könüllü razılaşmalar, normativ aktlar və ya qanunlar nəzərdə tutula bilər. Qəbul olunur ki, bəzi şirkətlərdə qısa müddət ərzində hesabatın verilməsinin qeyri-mümkünlüyü aydın (lakin xüsusi) səbəblərdən yarana bilər. Belə hallarda, hökumət həmin şirkətləri hesabat prosesinə cəlb etmək üçün öz tərəfindən bütün müvafiq addımların atıldığını və həmin addımların digər şirkətlər üçün məqbul olduğunu göstərməlidir.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumətin aşağıda göstərilən addımların birinin atılmasının sübutunu görməlidir:

- Şirkətlər tərəfindən hesabatları MHŞT meyarlarına və razılaşdırılmış şablonlara uyğun şəkildə verilməsini məcburi edən qəbul olunmuş/üzərində düzəlişlər edilmiş qanunlar və normativ aktlar.
- Bütün şirkətlər ilə hesabatların MHŞT meyarlarına və razılaşdırılmış şablonlara müvafiq verilməsinə dair razılaşdırılmış müqavilələr (o cümlədən qarşılıqlı anlayış memorandumları və hasilatın pay bölgüsü sazişlərinin məxfilikdən imtinaya aid olan müddəaları).
- Əgər şirkətlər bu prosesdə iştirak etmirsə, hökumət həmin şirkətlərə dair müəyyən tədbirlər (marağı olan digər tərəflərin razılığı ilə) görür və (marağı olan tərəflərlə) razılaşdırılmış tarixdə həmin şirkətlərin hesabat verəcəyini təşkil edir.

**Göstərici Qiymətləndirmə Üsulu**
## Struktur göstəricisi
# 12

**GÖSTƏRİCİ: Hökumət rəsmi hesabatların beynəlxalq standartlara uyğun şəkildə audit edilən hesabatlara əsaslanmasını təmin etmişdirmi?**

**Məqsəd:** MHŞT meyarları şirkətlər tərəfindən açıqlanan bütün məlumatların beynəlxalq standartlara üyğun şəkildə audit edilən hesabatlara əsaslanmasını tələb edir. Bu, MHŞT-nin həyata keçirilməsinin zəruri hissəsidir.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumət tərəfindən şirkətlərin təqdim etdiyi məlumatların beynəlxalq standartlara uyğun şəkildə audit edilməsini təmin etmək üçün səy göstərilməsinin sübutunu görməlidir. Bu, aşağıdakını əhatə edə bilər:

- Hökumət rəqəmləri beynəlxalq standartlara uyğun təqdim edilməsini tələb edən qanunları və normativ aktları qəbul edir.
- Hökumət mövcud olan audit standartlarında onların beynəlxalq standartlara uyğun gətirilməsini təmin etmək üçün düzəlişlər edir və şirkətlərdən müvafiq qaydada işlərin aparılmasını tələb edir.
- Hökumət bütün şirkətlərlə anlaşma memorandumunu razılaşdırır və bütün şirkətlərin təqdim edilən rəqəmlərini beynəlxalq standartlara uyğun surətdə audit edilməsini təmin etməyə öz razılığını verir.
- Şirkətlər könüllü surətdə beynəlxalq standartlara uyğun audit edilən rəqəmləri təqdim etməyi öz öhdəsinə götürürlər.
- Əgər şirkət beynəlxalq standartlara uyğun audit edilən rəqəmləri təqdim etmirsə, hökumət həmin şirkətlə (o cümlədən dövlətə idarəsi) birgə beynəlxalq standartların müəyyən vaxtda təmin edilməsi üçün müvafiq plan hazırlayır.
- Əgər müqayisə üçün təqdim edilən rəqəmlər audit standartlara uyğun deyilsə, bu halda marağı olan çoxsaylı tərəflərin qrupu həmin problemin razılaşdırılmış həlli yollarına öz razılığını verir.

**Göstərici Qiymətləndirmə Üsulu**
## Struktur göstəricisi
# 13

**GÖSTƏRİCİ: Hökumət rəsmi hesabatların beynəlxalq standartlara uyğun şəkildə eudit edilən hesabatlara əsaslanmasını təmin etmişdirmi?**

**Məqsəd:** MHŞT meyarları hökumət tərəfindən açıqlanan bütün məlumatların beynəlxalq standartlara uyğun şəkildə audit edilən hesabatlara əsaslanmasını tələb edir.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumət tərəfindən təqdim edilən məlumatların beynəlxalq standartlara uyğun şəkildə audit edilməsini təmin etmək üçün səy göstərilməsinin sübutunu görməlidir. Bu aşağıdakını əhatə edə bilər:

- Hökumət rəqəmləri beynəlxalq standartlara uyğun təqdim edilməsini tələb edən qanunları və normativ aktları qəbul edir.
- Hökumət mövcud olan audit standartlarında onların beynəlxalq standartlara uyğun gətirilməsini təmin etmək üçün düzəlişlər edir və onlara riayət edilməsini təmin edir.
- Əgər müqayisə üçün təqdim edilən rəqəmlər audit standartlara uyğun deyilsə, bu halda marağı olan çoxsaylı tərəflərin qrupu həmin problemin razılaşdırılmış həlli yollarına öz razılığını verir.

Göstərici Qiymətləndirmə Üsulu

**Struktur göstəricisi**

18

**GÖSTƏRİCİ: MHŞT hesabatı ictimaiyyətə:**
**– hamı üçün açıq,**
**– tam və**
**– anlaşıqlı**
**şəkildə təqdim olunmuşdurmu?**

**Məqsəd:** MHŞT tam şəkildə həyata keçirilmiş o zaman sayılır ki, MHŞT hesabatı açıqlanır, yayılır və marağı olan tərəflərin geniş dairələri tərəfindən müzakirə olunur. MHŞT meyarları hesabatın hamı üçün açıq, tam və anlaşıqlı şəkildə ictimaiyyətə təqdim edilməsini tələb edir.

**Dəlil:** Bu göstəricini qeyd etmək üçün, qiymətləndirən şəxs hökumət tərəfindən hesabatın MHŞT meyarlarına uyğun olaraq ictimaiyyətə təqdim olunmasını təmin etmək üçün səy göstərilməsinin sübutunu görməlidir, o cümlədən:

- Hesabatın kağız nüsxələrinin çap edilib, marağı olan ən vacib tərəflərin geniş dairələri, o cümlədən mülki cəmiyyət, şirkətlər, KİV və başqaları arasında yayılması.
- Hesabatın İnternetdə yerləşdirilməsi və veb-ünvanını marağı olan ən vacib tərəflərə bildirilməsi.
- Hesabatın tam olmasının, o cümlədən təsdiqetmə prosesində toplanan bütün məlumatların və təkmilləşmə tövsiyələrinin daxil edilməsi.
- Hesabatın anlaşıqlı olmasının təmin edilməsi, o cümlədən onun aydın, asan başa düşülən üslubda və müvafiq dillərdə dərc olunmasının təşkil olunması.
- Hesabatın yayılması üçün tədbirlərin, o cümlədən hökumət, mülki cəmiyyət və ya şirkətlər tərəfindən görülən tədbirlərin təşkil edilməsi.

# 7. ŞİRKƏT ÜÇÜN FORMALAR

**Göstəricinin Qiymətləndirmə Üsulu**
**Şəbəkə indikatoru**

**GÖSTƏRİCİ: neft, qaz və dağ-mədən sənayesi şirkətləri MHŞT-nin həyata keçirilməsini necə dəstəkləyirlər?**

**Məqsəd:** MHŞT-nin prinsip və qaydalarına uyğun olaraq MHŞT həyata keçirilən ölkələrin müvafiq sektorlarında fəaliyyət göstərən bütün şirkətlər razılaşdırılmış hesabat şablonlarına uyğun olaraq hökumətə materiallara görə ödənişləri aşkarlamalı və MHŞT-nin həyata keçirilməsini dəstəkləməlidirlər. Bu təşəbbüs üçün ictimai dəstəyin bildirilməsi, beynəlxalq iştirakçılar qrupunda iştirak etmək və ya onu dəstəkləmək, beynəlxalq standartlara uyğun olaraq auditdən keçmiş və razılaşdırılmış məlumatları aşkarlamaq və şirkət üçün formalara dair suallarla bağlı Təsdiqləndirən şəxslə əməkdaşlığı daxil edir.

**Dəlil:** Bu göstərici qiymətləndirən şəxsdən ümumi qiymətləndirilmənin keçirilməsini tələb etmir. Qiymətləndirən şəxs MHŞT-nin Təsdiqetmə hesabatında hər bir şirkətdən doldurulması tələb olunan Şirkətin özünüqiymətləndirmə formaları (aşağıda göstərilir) əsasında yazılı qiymətləndirilməni əks etməlidir. Şirkətlər formaları doldurmadığı halda qiymətləndirən şəxs bu barədə yekun hesabatda qeyd etməlidir. Əlavə olaraq qiymətləndirən şəxs yekun hesabatda şirkət haqqında ictimaiyyət üçün açıq resurslarda artıq dərc olunmuş hər hansı bir əlavə məlumatları daxil etməlidir. Şirkətə bu məlumatı yoxlamaq imkanı verilməlidir. MHŞT üzrə hesabatda şirkətin fəaliyyətinin yekunlarını əks etmək üçün istifadə edilən formalar həmçinin ictimaiyyət üçün açıq olmalı və şirkətlərin cavablarını ümumiləşdirən cədvəl MHŞT üzrə hesabata daxil edilməlidir.

Qiymətləndirən şəxs təsdiqetmənin əvvəlində formaların doldurulması tələb olunan bütün şirkətlərlə əlaqə yaratmalı, onları bu formaların doldurulmasının tələb olunduğu barədə məlumatlandırmalı və formaların Qiymətləndirən şəxsə qaytarılması tələb etməlidir. Əlavə olaraq Qiymətləndirən şəxs şirkətlərdən qazanılmış təcrübə və ən qabaqcıl təcrübə barədə soruşmalıdır. Belə bir tövsiyələrin verilməsi üçün şirkətlərin iki yolu var:

- şirkətlər özünüqiymətləndirmə formasında müvafiq bölmədən istifadə edə bilərlər və ya
- şirkətin qaldırdığı məsələ həssas olduğu halda şirkət Qiymətləndirən şəxsə şifahi məlumatlar verə bilər. Qiymətləndirən şəxs Təsdiqetmə hesabatında anonim məlumatlar və təcrübəni ümumiləşdirəcək.

Özünüqiymətləndirmə forması ilk növbədə şirkət tərəfindən aşağıdakı səviyyələrdə doldurulmalıdır:

**Ölkə səviyyəsində:**

- Təsdiqetmədən keçən və ölkənin neft, qaz və ya dağ-mədən sənayesində fəaliyyət göstərən hər hansı bir şirkət özünüqiymətləndirməsi kimi ölkə səviyyəsində Şirkət üçün formanı doldurmalı və Qiymətləndirən şəxsə təqdim etməlidir.
- Milli qiymətləndirən şəxs cavabları ümumiləşdirəcək və əlavə suallar yaranan və ya yardımedici məlumatlar tələb edilən şirkətlərlə əlavə yaradacaq. Şirkətlər belə bir tələblərə müsbət yanaşmalıdırlar.
- Şirkətlər fəaliyyət göstərən hər bir ölkə üçün bu formaları öz veb-saytlarında ictimaiyyət üçün açıq etməlidir.

**Beynəlxalq səviyyə:**

- MHŞT-nin dəstəklənməsi üzrə beynəlxalq öhdəlikləri götürən şirkətlər beynəlxalq səviyyəli özünüqiymətləndirmə formasını doldurmalıdırlar.
- Şirkət üçün beynəlxalq forma hər şirkət tərəfindən doldurulmalı və MHŞT-nin Katibliyinə göndərilməlidir. Bu formalar MHŞT-nin veb-saytında yerləşdiriləcək.
- Şirkətlər həmçinin öz veb-saytlarında MHŞT-nin dəqiq qəbul olunmasını təmin etməlidirlər.

MHŞT ŞİRKƏTİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ FORMASI
**ÖLKƏ SƏVİYYƏSİNDƏ**

**ŞİRKƏT:** **ÖLKƏ:**

Aşağıdakı göstəriciləri bu işarə ilə qeyd edin ✓

1. Şirkət ölkədə MHŞT-nin həyata keçirmə prosesinin dəstəklənməsini açıq bildirmişdirmi?
   ☐ Bəli ☐ Xeyr

2. Şirkət hökumət tərəfindən riayət olunan MHŞT ilə bağlı direktivlər (məsələn, qanun və razılıq üzrə memorandumları) daxil olmaqla ölkə üzrə MHŞT İş planının həyata keçirilməsini dəstəkləmək və bu sahədə əməkdaşlıq etmək (beynəlxalq iştirakçılar qrupu ilə razılaşdırıldığı kimi) və marağı olan tərəflərlə müvafiq görüşlərin keçirilməsi üzrə öhdəliyi varmı?
   ☐ Bəli ☐ Xeyr

3. Razılaşdırılmış MHŞT-nin hesabat şablonlarına və müvafiq vaxta uyğun olaraq materiallar üzrə bütün ödənişlər rəqəmləri ümumiləşdirən və MHŞT üzrə hesabatları hazırlayan təşkilatlara açıqlanmışdırmı?
   ☐ Bəli ☐ Xeyr

4. Rəqəmləri ümumiləşdirən və MHŞT üzrə hesabatları hazırlayan təşkilatlara təqdim olunan məlumatlar beynəlxalq standartlara uyğun müstəqil auditdən keçirilmiş hesabatlardan götürülmüşdürmi?
   ☐ Bəli ☐ Xeyr

5. Şirkət rəqəmləri ümumiləşdirən və MHŞT üzrə hesabatları hazırlayan təşkilatlardan ölkəyə edilən ödənişlərin hökumətin gəlirləri ilə MHŞT-nin hesabat şablonlarına uyğun olaraq uyğunlaşdırılmasında yardım edilməsi ilə bağlı müraciətlərə cavab vermişdir mi?
   ☐ Bəli ☐ Xeyr

**Ətraflı cavablar**
Əgər hər hansı bir göstərici "xeyr" işarələnibsə, xahiş edirik bunun səbəbini izah edin:

| |
|---|
| |

Hər hansı bir digər şərhlər:

| |
|---|
| |

# MHŞT ŞİRKƏTİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ FORMASI
# **BEYNƏLXALQ SƏVİYYƏSİNDƏ**

**ŞİRKƏT:**

Aşağıdakı göstəriciləri bu işarə ilə qeyd edin ✓

1. Şirkət MHŞT-nin Prinsip və Meyarlarını təsdiq edilməsi barədə aydın ictimai bəyanatı dərc etmişdir mi və bu məlumatı onun veb-saytında açıq əldə etmək mümkündürmi?
   ☐ Bəli ☐ Xeyr

2. Əgər uyğundursa (yəni ən azı bir təsdiqetməni bitirən MHŞT-ni həyata keçirən ölkələrdə fəaliyyət üçün) şirkət özünün veb-saytında doldurulmuş Şirkət üçün formalara link edibmi?
   ☐ Bəli ☐ Xeyr ☐ Uyğun deyil

3. Şirkət baş rəhbərliyinə MHŞT üçün strateji məsuliyyəti və şirkətin MHŞT siyasəti və tədbirləri üzrə əlaqələndirməyə və MHŞT dair marağı olan tərəflərdən müraciətlərə cavab verməyə görə məsul işçini təyin edibmi?
   ☐ Bəli ☐Xeyr

4. Əgər təsdiqetmə müddəti ərzində MHŞT konfransı keçirilibsə şirkətin baş rəhbərləri bu tədbirdə iştirak etmişdirlər və ya bunun dəstəklənməsi barədə bəyanat etmişdilərmi?
   ☐ Bəli ☐ Xeyr ☐ Uyğun deyil

5. Şirkətin qlobal davamlı inkişaf hesabatı və ya korporativ məsuliyyət hesabatı olduğu halda belə bir hesabatın xülasəsinə şirkətin MHŞT-nin həyata keçirməsində töhfəsi barədə məlumat daxil edilibmi və veb-saytda yerləşdirilibmi?
   ☐ Bəli ☐ Xeyr

**Ətraflı cavablar**

Əgər hər hansı bir göstərici “xeyr” işarələnibsə, xahiş edirik bunun səbəbini izah edin:

| |
|---|
| |

Hər hansı bir digər şərhlər:

| |
|---|
| |

# 8. İCMAL GÖSTƏRİCİSİ

**Göstəricinin Qiymətləndirmə Üsulu**
**Sxema indikatoru**

**GÖSTƏRİCİ: qazanılmış təcrübə, fərqlərin aradan götürülməsi və MHŞT-nin davamlı həyata keçirilməsinin təminedilməsinə dair tədbirlərin görülməsi üçün hansı addımlar həyata keçirilmişdir?**

**Məqsəd:** MHŞT üzrə hesabatların hazırlanması və yayılması MHŞT-nin həyata keçirilməsi prosesinin bitməsi deyil. Bunun əhəmiyyəti həm prosesdə, həm də hazırlanmadan irəli gəlir və həyata keçirmədə qazanılmış təcrübənin tədbiq edilməsi MHŞT hesabatında qeyd olunmuş fərqlərin aradan götürülməsi və MHŞT-nin davamlı həyata keçirilməsi üçün olduqca vacibdir.

**Dəlil:** Təsdiqləndirən şəxs icmal mexanizminin yaradılması və yuxarıda qeyd olunan məqsədi nəzərə alındığın dəlilini görməlidir. Təsdiqləndirən şəxs bu barədə Təsdiqetmə hesabatında şərh etməlidir.

**Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü** (MHŞT) yerli səviyyədə gəlirlərin şəffaflığını təbliğ edən qlobal səviyyədə hazırlanmış standartdır. Bu hökumətlər, şirkətlər, mülkü cəmiyyət, investorlar və beynəlxalq təşkilatların koalisiyasıdır. Möhkəm və kifayət qədər dəyişkən metodologiya vasitəsilə şirkətlərin ödənişləri və hökumətin neft, qaz və dağ-mədən sənayesindən gələn gəlirlər haqqında məlumat dərc edilir, uyğunsuzluqlar isə azaldılır. MHŞT Şurası və Beynəlxalq Katibliyin MHŞT prosesinin mühafizəçiləri olduğuna baxmayaraq, MHŞT beynəlxalq iştirakçılar qrupunun iştirakı ilə ölkə səviyyəsində həyata keçirilir.
**www.eitransparency.org**

www.eitransparency.org